**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN**
**ELMİ ŞURASININ 31 may 2023-CÜ İL TARİXDƏ**
**KEÇİRİLMİŞ İCLASININ 10 №-Lİ**

**P R O T O K O L U**

**SƏDR : E.S.İSAYEV**
**KATİB: O.C.CƏFƏROV**

**İŞTİRAK EDİRDİ:** Elmi Şuranın 49 nəfər üzvündən 42 nəfər.

1. Kadr hazırlığı sahəsində görülən işlər

**Rektor**
**Elbrus İsayev**

2. Texnologiyalar parkında görülən işlər və qarşıda duran vəzifələr

**Rektor**
**Elbrus İsayev**

3. İdman klubunun hesabatı

**İdman klubunun rəhbəri**
**Məmmədəli Rəhimov**

4. Ödənişli təhsilin yerinə yetirilmə vəziyyəti

**Baş mühasib**
**Ülvü Baxışlı**

5. Universitet Tələbə Həmkarlar İttifaqı Komitəsinin hesabatı

**Tələbə HİK sədri**
**Hüseyn İmanov**

**Elmi Şura qərara alır: 1**

1. Rektor Elbrus İsayevin hesabatı nəzərə alınsın və qənaətbəxş hesab edilsin.
2. Universitetdə yüksək ixtisaslı və rəqabətə davamlı elmi-pedaqoji kadrların hazırlanmasında sistemli və ardıcıl tədbirlər həyata keçirilsin.
3. Professor-müəllim heyətinin peşəkarlıq səviyyəsi yüksəldilsin.
4. Universitetdə çalışan gənc kadrların doktorantura və dissertanturaya cəlb olunması işi gücləndirilsin.
5. Magistratura səviyyəsi üzrə təhsilin keyfiyyət göstəricisinin artırılmasına diqqət artırılsın.

6. Universitet əməkdaşlarının xarici dil bacarıqlarının artırılması və İELTS sertifikatlarının alınmasına diqqət artırılsın.
7. Kadr hazırlığı aparılarkən əmak bazarının tələbi nəzərə alınsın.

**Elmi Şura qərara alır :2**

1. Universitetin rektoru Elbrus İsayevin hesabatı nəzərə alınsın.
2. Texnologiyalar parkının qurulması ilə bağlı müvafiq tapşırıq və sərəncamlardan irəli gələn vəzifələri icrası aidiyyatı üzrə davam etdirilsin.
3. Texnoparkın fəaliyyət sahəsinə daxil olan istiqamətlər üzrə magistr kurslar onlayn və canlı davam etdirilsin.
4. Qabaqçıl texnologiyalarla əməkdaşlıq sahələrində praktik tədbirlər keçirilsin.
5. Texnoparkın inşası zamanı tədris və tədqiqat imkanlarının xüsusiyyətlərinin nəzərə nəzərə alınması C. Kəngərliyə tapşırılsın.
6. Aidiyyatı fakültə dekanlarına tapşırılsın ki, müvafiq ixtisaslarda texnoparkın imkanları tədris və tədqiqat zamanı tətbiqinə dair təkliflər hazırlasınlar.
7. Qərarın icrasına nəzarəti öz üzərimə götürürəm.

**Elmi Şura qərara alır: 3**

1. İdman klubunun rəhbəri Məmmədəli Rəhimovun hesabatı nəzərə alınsın və qənaətbəxş hesab edilsin.
2. Növbəti tədris ilində idman məşqlərinin səmərəliliyini daha da artırmaq məqsədilə universitetdə idmanın maddi–texniki bazasının daha da möhkəmləndirilsin.
3. Universitetdə istedadlı tələbələr aşkarlanıb müxtəlif idman məşğələlərinə cəlb edilsin.
4. Yüksək səviyyəli idmançıların və komandaların müxtəlif miqyaslı yarışlarda çıxışları təmin edilsin.
5. Naxçıvan Muxtar Respublikasında və respublikadan kənarda yerləşən ali təhsil müəssisələri ilə idman əlaqələri gücləndirilsin.
6. İdman təlimatçılarının və ictimai hakimlərin hazırlanması işinə diqqət artırılsın.
7. Fakültələrdə fakültə komandalarının təşkili işini təkmilləşdirmək məqsədilə fakültələrin ictimai təşkilatlarının köməyindən səmərəli şəkildə istifadə edilsin.
8. Fakültələrdə idman işini canlandırmaq məqsədi ilə “Bədən tərbiyəsi və idman” kafedrasının müəllimləri fakültələrə cəlb edilsin.
9. Universiadaların təşkili sahəsində tələbələrin kütləviliyinə nail olunsun. Əcnəbi tələbələrin bütün idman növlərində təmsil olunmasına diqqət artırılsın.
10. İdmanda xüsusi nailiyyətləri olan tələbələrin qiymətləndirilməsi daim diqqətdə saxlanılsın.
11. Qərarın icrasına nəzarət İdman klubunun rəhbəri Məmmədəli Rəhimova tapşırılsın.

**Elmi Şura qərara alır: 4**

1. Universitetin baş muhasibi Ülvü Baxışlının məlumatı nəzərə alınsın.
2. Universitet üzrə ödənişli təhsilin vəziyyəti haqqında hesabat qənaətbəxş hesab edilsin.
3. Təhsil haqlarının ödənilməsi vaxtında təmin olunsun.
4. Təhsil borclarının ödənilməsi işinə dekanlıqlar diqqəti artırsınlar.
5. Qərarın icrasına nəzarət baş muhasib Ülvü Baxışlıya həvalə edilsin.

**Elmi Şura qərara alır: 5**

1. Universitet Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Hüseyn İmanovun hesabatı nəzərə alınsın və məqbul hesab edilsin.
2. Tələbə Həmkarlar İttifaqı Komitəsinin işini gücləndirmək üçün işçi komissiyaları yaradılsın.
3. Təhsildə və ictimai işlərdə fəal olan tələbələr mükafata təqdim edilsin.
4. Tələbə Həmkarlar İttifaqı Komitəsi Bədən tərbiyəsi və idman kafedrası ilə birlikdə mütəmadi olaraq tələbələr arasında kütləvi idman tədbirləri təşkil etsin.
5. Tələbələrin asudə vaxtlarının səmərəli keçirilməsinə daim diqqət olunsun
6. Tələbə HİK-in sədri Hüseyn İmanova tapşırılsın ki, öhdəsinə düşən vəzifələri daha da artırsın.